Bazar, 12 yanvar 1919-cu il, nömrə 85

# AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 9 rəbiülaxir sənə 1337. 12 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## MİLYUKOV ZEHNİYYƏTİ

İstanbuldan qayıtmış arxadaşımız, Türkiyə həyatının son səhifələri haqqındakı təsirlərini anladarkən, söz arasında, əzcümlə [o cümlədən] Milyukovun İstanbula gəlişindən də bir neçə kəlmə danışdı.

Milyukov, İstanbul qəzetələrinə bəyanat vermiş; bəyanında demiş ki:

*"Rusiyada, əzcümlə Qafqaziyada vücuda gələn yeni cümhuriyyətlər, bolşeviklərin hərəkətləri nəticəsində məcburiyyət və zərurətlə hasilə gəlmiş hökumətlərdir. Onların başqa cürə rəftar etməyə çarələri də yox idi. Başlarını saxlamalıdırlar. Hələ [nə vaxt] ki, işlər yoluna düşdü, Rusiyada bolşeviklik qurtardı, təbiidir ki, bu hökumətlər yenə Rusiyaya qovuşacaqlar. Nəhayət, olsa-olsa onlara daxili bir muxtariyyət (avtonomi) veriləcəkdir. Bunun şəklini də Rusiya Məclisi-Müəssisanı təyin eyləyəcəkdir."*

Dağılmış Rusiyanın təkrar yığılması haqqındakı mülahizəsini öyrəndikdən sonra türk mühərriri rus siyasisinin Türkiyə haqqında baxışını öyrənmək istəmişdir. Bu xüsusda Milyukov nə desə yaxşıdır? Milyukov demişdir ki:

*"Türkiyənin səadəti, xalis bir türk hökuməti əmələ gətirməkdədir. Ərəbistan, Ermənistan və sair türk olmayan yerləri cəbrən [zorla] əlində saxlayıb da bu qədər müxtəlif millətlərin ayrı-ayrı arzu və hərəkətləri içində boğulub qalmaqdansa, Türkiyəyə yekparə milli bir hökumət olmaq daha əsləhdir [yaxşıdır]. Bundan türk milləti fayda görər. Türk səltənətinin bəqası [daimiliyi] da bu əsas üzərinə quruludur."*

Milyukovun türk səltənəti və türk millətinin faydası haqqında söylədiyi bu mütaliə, bizim də tamamilə şərik olduğumuz bir məsələdir. Bu, bu gün bütün cahani-bəşəriyyət üzərinə hakim olan bir fikirdir. Bu fikir, Milyukovun vətəni olan Rusiyada, bəyənmədiyi bolşeviklər tərəfindən bütün dünya hüzurunda bəşəriyyətin müqəddəs bir məqsədi kimi elan edildi. Gərçi elan olunduqdan sonra bolşeviklərin qanlı çizmələri [çəkmələri] altında da paymal oldu [tapdalandı]. Bolşeviklərin saflığını saxlaya bilmədikləri bu müqəddəs şüarı Amerika demokratiyasının ruhiyyatına tərcüman olan böyük rəisi-cümhur [prezident] Vilson Dünya müharibəsinin insanlıq aləminə qazandıracağı ilahi düsturların başlıcası olmaq

üzrə hürriyyət və salaha [asayişə] təşnə olan [susayan] millətlərə bildirdi, bəşəriyyət[in] üzünü güldürdü.

Bundan sonra Rusiyada, Türkiyədə, Avstriyada, qismən də Almaniyada cabbar [despot, müstəbid] və hakim olmaq istəyən bir məslək yerinə, istiqlal davası ilə ortaya bir çox millətlər çıxdı. İnqilab məşiməsindən [bətnindən] doğmuş olan yeniyetmə millətlər, səslərini Hərbi-ümumi [Dünya müharibəsi] əsnasında, cahangir [imperialist] dövlətlərin toqquşması zamanında ayaq altında əzilən kiçik millətlərin səslərinə verdilər.

Hərb dəhşətləri altında məhv olan insanlara sülh bəşarəti [muştuluğu], cahangirlik altında paymal olan millətlərə istiqlal müjdəsi, istibdad çəngalında [caynağında] can çəkişən zəhmətkeşlərə hürriyyət nəvidi [vədəsi] verən İngiltərə, Fransa, Amerika və müttəfiqlərinin camaatları dəxi müxtəlif cinslərdən, millətlərdən; verilən bəşarət, müjdə və o nəvidlərə müstəhəq [layiq] təbəqə və cəmiyyətlərdən ibarətdirlər.

Verilən vədlərin vəfa və səfa ilə ifası onların kəndilərindən ötrü də mənasız deyildir.

Zənn edirmisiniz ki, Böyük Britaniya məhkum etdiyi düşmən məmləkətlərdəki əhalinin hüquqi-milliyyəsini təmin eyləsin də, bu müzəffəriyyətin hüsulunda [əmələ gəlməsində] kəndisi ilə silah arxadaşlığı edən hindlinin ehtiyacını nəzərə almasın? Yaxud irland homrulu nəticəsiz qalsın?.. Qətiyyən deyil.

Hərbi-ümumi bir şeyi isbat etdi. Bunu hər şeydən ziyadə isbat edən İngiltərə, Amerika, Fransa ittifaqı isbat etmiş oldu: Bir millətdən təşəkkül edən dövlətlər, yaxud milləyyətləri təzyiqlə deyil, ülfətlə birləşdirmiş olan dövlətlər müzəffər çıxdılar. Müqabilə [müqavimət] qüvvətləri çox oldu. Ağır zərbələrə dayandılar. Hətta bu gün məğlub kimi görülən Almaniya belə bu xüsusda bir istisna təşkil etməmişdir.

Kimsədən ötrü gizlin deyildir ki, bu Hərbi-ümumi əsnasında ən çox sarsılan, ən çox daxili təşvişlərə tutulan və axırda bəxyələnmiş [bir-birinə tikilmiş, yamanmış] olduğu parçalara dağılan hökumətlər – Rusiya, Avstriya və Türkiyə hökumətləri olmuşdur. Çünki bu üç hökumət dünyada mövcud müxtəlif millətlərdən ibarət olan dövlətlərin ən məxlutu [qarışığı], ən azarlıları idi. Bunların azarı milli dövlət olmamaqdan, ayrı-ayrı meylləri, mənfəətləri təbii bir surətdə deyil, zor və güclə bir məqsədə çevirtdirməkdən ibarətdi.

Türkiyənin nicatı Osmanlı imperatorluğu deyil, türk hökuməti olmaqdadır. Amənna [inandıq, doğrudur]. Buna Milyukov deyil, bütün türkçülər, milliyyətin ən qüvvətli birlik camiəsini xalqımızın “dili dilimdən, dini dinimdən” dediyi camiəsində görən müasir müsəlmanlar dəxi etiqad edirlər. Fəqət əcəba, bu düstur neyçün yalnız Türkiyəyə münhəsir [aid] olsun?! Neyçün Rusiyanın səadəti tamamilə rus kütləsindən mütəşəkkil milli bir dövlət şəklinə girməkdə olmasın?! Neyçün dini türkün dinindən, tarixi türklə birlikdə islam yolunda cihad etməkdən ibarət ola gələn və əsrlərdən bəri türk sultanını xəlifəyi-ruyi-zəmin [yer üzünün xəlifəsi] deyə tələqqi [qəbul] edən ərəbin Türkiyədən ayrılıb da bir Ərəbistan vücuda gətirməsi Türkiyə üçün

bir səadət, bir yüngüllük ədd [hesab] edilsin də, məsələn, Gürcüstan, Ermənistan, daha ziyadə tamamilə başqa bir dil, özgə bir din, adat və ənənata [adət-ənənələrə] malik olan Azərbaycan və Türküstan kimi vilayətlərin istiqlalı təsəvvür olunmasın?!...

Bu bir zehniyyətdir.

Zehniyyət demək, insanın beynində yer tutmuş bəzi sabit fikirlərdir ki, onu oradan çıxarmaq çətin bir işdir. Bu xəstə zehniyyət yalnız bu gün müsafir kimi bulunduğu İstanbula bir fateh və bir sahib kimi girmək azarı ilə xəstə olan Milyukovun qafasına məxsus deyil, kamali-təəssüflə görürüz ki, bütün rus partiyalarında vardır.

Yalnız Milyukovun şagirdləri olan "Yedinaya Rossiya" qəzetəçiləri deyil, biz görürüz ki, rus partiyalarından heç biri, ən soldan tutub ən sağına qədər, bizim haqqi-istiqlalımızı qəbul etmək istəməyirlər. Biz görürüz onlar "xilaskar" və "naci" ["nicat verən"] deyə buraya gətirdikləri və gəldikləri günə "xilas günü" dedikləri ingilisləri, Azərbaycan istiqlalını tanımaya mail görüncə nə intriqalar çevirməyə, nə böhtanlar söyləməyə başladılar! Onlar hətta o dərəcəyə gəlir ki, adəta Azərbaycan türklərinin neyçün durub da ingilislərlə ədavət eyləmədiklərinə acıqlanırlar.

Bu xüsusda heç bir zaman barışmayan bolşeviklə kadet belə kəndi aralarında ümumi bir dil bulurlar. Menşevik eserlə anlaşır. Əmələ [fəhlə] burjuyla birləşir. Arşın ikiləşir. Tibqi [eynilə] Milyukovun arşını kimi. "Vahid Rusiya" denilir. Bu, bütün demokratiyanın səsidir, deyə iddia olunur.

"Azərbaycan", denilir, bu, "Müsavat"ın intriqası, xan, bəy və ağaların kələyidir, sayılır.

"Azərbaycan istiqlalını bütün Azərbaycan sosialistləri də müdafiə edir", denilir. Buna qarşı, "Onlar müsavatçı sosialistdir", deyirlər. Fəqət unudurlar ki, bu məntiqə [görə] kəndiləri də "kadet"çi sosialistlərdir.

Bu bir zehniyyətdir, fəqət xəstə zehniyyətdir. Bu zehniyyətə bilxassə hökumət eyləməyə, hakim olmağa öyrənmiş olan millətlərin firqələri tutulmuşdur. Tutulmaları bir dərəcəyə qədər təbiidir də. Milyukovun və milyukovçu sosialistlərin düçar olduqları xəstəliyə mən bəzi Türkiyə firqələrinin də giriftar olduqlarını görmüşdüm.

Fəqət bu xəstəlik, firqə partizanlığı edən bəzi politika adamlarında olsa da, əmin olmalıdır ki, məsələyə daha saf və daha aydın nəzərlə baxan və hadisələri sağlam bir hisslə duyan xalq, avamfrib [demaqoq] və zəhərli siyasətlərlə xarab edilməmiş olan camaat, hər zaman doğrunu sezər. Bir kərə bu doğrunu sezdimi, həqiqi rəhbərlərini görər, həqiqət yolunu tapar.

Ümid edəlim ki, tarixin bir mislini daha qeyd edəmmədiyi Cahan müharibəsinin verdigi dərslər nəticəsində müqəddərati-aləmə [dünyanın taleyinə] icrayi-təsir etmək vəzifəsilə vəzifədar olan böyük millətlərin böyük demokratiyası [xalqı] bu böyük həqiqəti sezəcək dərəcədə həssas olsun. Bu olarsa, o zaman arşınlar birləşər, Türkiyə üçün istənilən Rusiya üçün də istənilər. "Demokratiya" denildiği zaman mənası dəyişilib də "rus milləti" anlaşılmaz. "Azərbaycan milləti"ni dəxi bəy, xan, deyə təfsir edəmməzlər!

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(Keçən nömrədən mabəd)*

**İrəvan quberniyası müsəlmanları haqqında**

İrəvan quberniyası müsəlmanlarının nümayəndələri tərəfindən verilmiş ərzi-hal oxunduqdan sonra məbus Vinoqradov söz alır.

**Vinoqradov** - Qardaş müharibəsi hələ tamamilə qurtarmamış yenə qardaş qanı axıdılır. Əhalinin bir qismi digər qismini öz xarabazarından qovur. Biz ruslar böylə hərəkətləri, böylə tədhiş [terror] və təcavüzləri protesto edərək hər dövlətin xətti-hüdudunu [sərhədini] təyin etmək ixtiyarına malik olan Ümumcahan Konfransının qərarınadək hər kəsin öz yerində qalmasını tələb ediriz.

**Rəsulzadə M. Əmin bəy** - Burada yenə imdad naləsi eşidiriz. Məlumdur ki, millətlərin haqq və hüququ gözlənilsin gərək. Hər kəs nerədə yaşayırsa, o yerə malik olmaq haqqına haizdir [sahibdir]. Təbii, millətdaş, dindaş və irqdaşımız olan İrəvan quberniyası müsəlmanlarının, bunca müsibətə, millət mənafeyi naminə təhəmmül edən [qatlaşan] qardaşlarımızın çəkdikləri bəlalara biz biganə qalammayız. Onlar ümummillət mənafeyi yolunda bunca əza və cəfalar çəkirlər. Binaileyh [buna görə], millət dəxi onları müdafiə etməlidir. Azərbaycan Hökuməti onlara feilən müavinət [kömək] göstərə bilməz; lakin mənəvi, siyasi və bəlkə qismən də maddi yardım edə bilər. Binaileyh, Azərbaycan Hökuməti, məsələnin Sülh Konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafı bitirməsinədək millətdaşımız və irqdaşımızın düçar olduqları ələmlərini yüngülləşdirməlidir. Yalnız ora deyil, Lənkəran müsəlmanları da bu haldadırlar. Etiqad ediriz ki, bu xüsusda hökumət ciddi tədabir [tədbirlər] görmüşdür. Görmüşsə, şimdi bizə məlumat versin. Məlumat verməyə hazır deyilsə, bu yaxın iclaslardan birisində bəyanat verər. Azərbaycan Parlamanı bu dərəcə zülüm və qədrlərə [rəhmsizliyə] düçar olan qardaşlarımıza müavinətini diriğ etməz [köməyini əsirgəməz].

**Sultanməcid [Qənizadə]** - İrəvan quberniyası müsəlmanlarının faciəsi məlum oldu. Rusların nümayəndəsi də burada protesto etdilər. Əlbəttə, onlar böylə faciələrin oynanmasına razı olammazlar. Ancaq bu bizim yaramızı sağaltmaz. Bu gün biz yalnız protesto və nifrətlər izharı ilə qənaət edə bilməriz. Zira bununla müsəlman qardaş və bacılarımızın dərdinə əlac olmaz, bundan müsibətzədələrə təsəlli olmaz. Bu saat onların ismətləri, namusları paymal olur [tapdalanır]. Quru protestodan bir şey çıxmaz. Qonşularımız Gürcüstan və Ermənistanda külli miqdarda islam əhalisi olub, öz hökumətlərinə tabedirlər. Gürcüstan və Ermənistanda müsəlman olduğu kimi, bizim də məmləkətimizdə əhalinin həpsi türk-islam olmayıb, bir çox erməni, gürcü, rus və sairə var. Biz onların həpsiylə ədalətlə rəftar ediriz. Qonşu hökumətlər də böylə etməlidirlər. Ermənilər bunu anlamayırsalar, biz onlara icrayi-təsir edə biləriz. Ermənistandakı müsəlmanlar haqqında rəva görülən zülümlər barəsindəki təkliflərimizi qanmayırlarsa, güclə

qandıra biləriz. Güclə icrayi-təsir etmək bu deyil ki, onlar kimi atəş açaq, qan tökək, xeyr! Bizə atəş saçmaq, qan tökmək lazım deyildir. Şimdi İngiltərə, Fransa və Amerika nümayəndələri yaxınımızdadırlar. Bunlar millətlər hüququnun və əmnasayişin təminini dəröhdə etmişlərdir. Əvvəl onlara müraciətən təklif, rica və hətta tələb edəlim ki, bilatəxir [dərhal] bu fəcailərə [faciələrə], bu məzalimlərə [zülümlərə] mane olsunlar, qardaşlarımızı bu fəlakətdən qurtarmaq üçün tədbir görsünlər. Əgər onlar tədbir görməzsələr, aşkardır ki, o vaxt biz də öz hüququmuzu nə yol ilə müdafiə edəcəyimizi sonra danışarız. Hərgah biz fəryad etsək, bir tədbir görərlər. Hökumətimizin borcudur bu barədə təşəbbüslər etsin.

**[Əliheydər] Qarayev** - Biz təklif edərdik hökumətə tapşırılsın ki, gələn iclasadək lazımi tədbirlər görsün və bu xüsusda gələn iclasda məlumat versin.

**Əhməd Cövdət** - "Müsavat" tərəfindən böylə bir təklif varid olmuşdur [gəlmişdir]:

*"İrəvan nümayəndələrinin İrəvan quberniyasında müsəlmanların düçar olduqları məzalim haqqındakı ərzihal və istimdadlarını [yalvarışlarını] dinləyərək Azərbaycan Məclisi-Məbusanı bu xüsusda hökumətin hər növ tədabirə [tədbirlərə] müraciətlə bu müsibətlərin dayandırılması üçün təşəbbüsati-lazimədə bulunması təklifi ilə növbədəki məsələlərin müzakirəsinə keçir."*

Təklif səsə qoyularaq ittifaqi-ara [yekdillik] ilə qəbul olunur.

**Əfvi-ümumi [amnistiya]**

Növbədə siyasi məhbuslar haqqında Parlaman komisyonu tərəfindən tərtib edilmiş əfv-ümumi qanun layihəsidir. Layihə budur:

Qardaşov, [Abdulla bəy] Əfəndizadə, Ağazeynal Tağıyev, Aslan bəy Səfikürdlü və [Səməd ağa] Ağamalov cənablarından təşəkkül edən "Əfvi-ümumi" komisyonu Azərbaycan Məclisi-Məbusanının 7 dekabr 1918 sənəsi qərarına binaən [əsasən] komisyona verilən siyasi "Əfvi-ümumi" qanun layihəsini dekabrın iclaslarında müzakirə edərək, aşağıdakı qərarı aldı:

Azərbaycan Məclisi-Məbusanının açılması münasibətilə siyasi əfvi-ümumi elan olunur. Buna binaən Məclisi-Məbusan qərar verir ki:

I. a) Cəza qanunnaməsinin 129-133 maddələri (Məcəlleyi-qəvanin [qanunlar məcəlləsi], 15-ci cild, 1909 sənəsi nəşri);

b) Cinayət və tədibi-cəzası [cəzasının verilməsi] qərarnaməsinin 262-272, 2731, 275, 276, 280, 281, 2811, 2861 maddəsinin 2-ci qeydi, 318-328, 987, 9871, 1358, 13581, 13582, 13593, 135910 maddələri (Məcəlleyi-qəvanin, 15-ci cild, 1885 sənəsi nəşri və müəxxirəsi [sonrakılar]);

c) Sülh hakimlərinin tətbiq edəcəkləri cəzalar haqqındakı nizamnamənin (xüsusi ev sahibinə dəyən xəsarətin tədiyəsi [ödənməsi] istisna olmaq üzrə) 292, 33, 394, 395, 481, 485, 512, 513, 514, 572, 578, 58-59, 591, 61-63 (I və II hissələr), 143, 155-168 (Məcəlleyi-qəvanın, cild 15, 1885 və 1914 sənələri nəşri) maddələri mövcibincə [maddələrinə əsasən] vaqe olan əf'allarından [feillərindən] dolayı məhkum olan şəxsləri məsuliyyət və cəzadan və bunun hər növ nəticələrindən

azad etməlidir.

Bu qərarın hökmü şu fəsildə göstərilən əf’alın icrası əsnasında cinayət qanunlarının mən’ [yasaq] eylədiyi digər əf’alın ümumisinə dəxi şamildir.

II. Baxılmamış və yaxud hali-tədqiqdə bulunmuş 1918 sənəsi dekabrın 7-dən əvvəl icra edilmiş birinci fəsildə göstərilən əf’al haqqındakı işlər təvəqqüf edilməli [durdurulmalı] və əbədiyyən unudulmalıdır.

III. Əgər qərarlar verilməmiş, yaxud qanun gücünə girməmiş və yaxud tətbiq edilməmişsə, bu qanunun 1-ci və 2-ci fəsillərində göstərilən tədbirlərin icrası aid olan ədliyyə məhkəmələrinə və sair bilcümlə xüsuslarda müddəiyi-ümumi [prokuror] dairəsinə həvalə olunur.

IV. 1918 sənəsi dekabr 7-sindən əvvəl siyasi və dini amillər üzərinə bu qanunun birinci fəslində bulunmayan digər cinayət qanunlarının mən’ eylədiyi əf’ala mürtəkib olan [qadağan olunan feillərə dəxli olan] şəxslərə aid olan ədliyyə məhkəmələri hüzurunda bu qanunun 1 və 2-ci fəslində olan tədbirlərin kəndlilərinə dəxi təşmil [şamil] edilməsi üçün istidada [müraciətdə] bulunmaq haqqı verilir. Bu istidalar, tərtibat iclaslarında həll olunur. Bu iclaslarda təhriri [yazılı] və şifahi bizzat [şəxsən] və yaxud vəkil vasitəsilə istida edənlər bəyanatda buluna bilərlər. Bu qəbil işlər haqqında verilən ədliyyə məhkəmələrinin qərarları mühakimati-cinaiyyə [cinayət məhkəməsi] nizamnaməsinin 893-899 maddələri mövcibincə şikayət edilə bilər.

V. Cəhəti-mülkiyyə və əsgəriyyənin qərarlarınca ədliyyə məhkəmələri xaricində bu qanun[da] məlhuz olan [nəzərdə tutulan] və öylə də siyasi məznunluğa [şübhəliliyinə] görə 1918 sənəsi dekabrın 7-dən əvvəl vəz olunan [qoyulan] cəzalar ləğv edilir. Bu qərar aid olduğuna görə Daxiliyyə və Hərbiyyə nazirləri tərəfindən icra olunur.

Bəzi məbusların xahişinə görə, Səfikürdski həzrətləri əfvi-ümumi qanununun maddələrini şərh edir və qabaqca xəbər verir ki, Hökumət qanunu qəbul edir. Qanun bir səslə qəbul olunur.

**Fəhlə məsələsi**

Bundan sonra “Müsavat” şöbəsi tərəfindən Məsai [Əmək] nazirinə xitabən böylə bir sorğu verilir:

Azərbaycan Məclisi-Məbusan Rəyasəti-alisinə.

“Müsavat” şöbəsi aşağıdakı sualın Məsai Nəzarətinə verilməsini təklif edir:

Azərbaycan Məsai naziri bəy əfəndi həzrətlərinə!

Məsai naziri yəqin bilirlər ki, Bakı əmələlərinin [fəhlələrinin] halı olduqca müşkül vəziyyətdədir; ki əvvəlcə “Sovet syezd” tərəfindən təsis olunmuş xəstəxanalar indi xarab bir haldadırlar; əmələlər dava-dərman tapa bilmirlər; əmələ mənzilləri hifzüssihhə [gigiyena] nöqteyi-nəzərindən fəna bir haldadır; zavod komissiyaları ilğa [ləğv] edilmiş, bu üzdən ərzaq paylamaq və sair bu kimi xüsuslarda fəhlələr bir çox təshilatdan [asanlıqdan] məhrum qalmışlardır; “kollektivnı doqovor” [müştərək müqavilə] yoxluğu üzündən əmələnin məvacibini azaltmışlar, verilən gündəlik maaş zamanəmizdəki bahalığa nisbətlə məsarifin [xərclərin] yarısını belə ödəmir. Bundan əlavə, ümumi işsizlik üzündən əmələlər ac qa-

lır, tədricən ölür, min cürə xəstəliklərə düçar olurlar.

Əmələnin maddətən halı böylə pərişan ikən, mənəvi halı da qaranlıqdır. Gecə kursları, məktəblər, xalq yurdları yoxdur. Əmələ mühiti qaranlıq bir aləm təşkil edir. Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər.

Əcəba, Məsai Nəzarəti əmələnin maddi və mənəvi ehtiyacını rəf eyləmək [aradan qaldırmaq], eyni zamanda da maaşını yoluna qoymaq və məsainin [əməyin] mənafeyini qanunən mühafizə eyləmək üçün nə kimi planlar və tədbirlər düşünməkdədir?

*"Müsavat" şöbəsinin rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə.*

(axırı var)

## TELEQRAF XƏBƏRLƏRİ

**Avstriyada monarxistlər**

Vyanadan Kopenhaqa teleqrafla xəbər verirlər ki, orada monarxistlərin mitinqi vaqe olmuşdur. Bu mitinqdə bir para Avstriya generalları, sabiq imperatorun qardaşı hersoq Maksı Karlın vəliəhdi intixab etmişlərdir [seçmişlər].

**Almaniyada**

Tiflisdən xəbər verirlər ki, Almaniya mətbuatının verdiyi məlumata görə, Berlində vaqe olan nümayişlər əsnasında "Forverts" qəzetəsi idarəsi təcavüzkaranə bir surətdə zəbt edilmişdir. Bundan əlavə, burjuaznı qəzetə idarələri və "Volf" teleqraf acentəliyi dəxi zəbt edilmişlərdir. Hökumət bu işi özü üçün düşmənanə bir hərəkətədd [hesab] etdiyindən, bu cür tədhişlər [terrorlar] əleyhinə nümayişlər yapmağı öz tərəfdarlarına xəbər vermişdir. Sabahı günü böyük nümayişlər yapılmışdır. Kansler yaşadığı bina qarşısına böyük dəstə əhali cəm olub "spartakların" xudsəranə [özbaşına] hərəkətləri əleyhinə öz narazılıqlarını izhar etmişlərdir. Hökumət tərəfdarı olan nümayişçilərin silahı əllərindən alınmışdır. Buna baxmayaraq Potsdam meydanında atışma başlanıb, tələfat dəxi olmuşdur. "Spartak" əsgərləri nümayəndələri ağ bayraq əllərində hökumət əsgərləri qarşısına gəlib hökumət dəftərxanasının mühasirə edilməsinə görə təslim olmalarını tələb etmişlərdir. Hökumət əsgərləri bu xəbəri öz komandanlarına xəbər vermək istədikdə "Spartak" əsgərləri xainanə bir surətdə hökumət əsgərlərini atəşə tutub böyük tələfata bais olmuşlardır. Hökumət əsgərləri komandanı əhvalatı böylə gördükdə müdafiəyə məcbur olduğu üçün pulemyot atəşi başlanması əmrini vermişdir. Pulemyot atəşindən sonra küçələr "Spartak" əsgərlərindən xali edilmişdir.

**Rodzyankonun planları**

Novorossiyskdən alınan məlumata görə, Dördüncü padişahlıq Duma sədri Rodzyanko, Dövlət Duması üzvlərindən, zemstvo və sabiq demokratlar müşavirəsi nümayəndələrindən ibarət təzə bir demokratlar müşavirəsi dəvət edilməsi məsələsini qaldırmışdır. Rodzyankonun bu fikri Kuban məhafili-siyasiyyəsində [siyasi dairələrində], həmçinin general De-

nikin tərəfindən hüsn-təvəccöhlə qarşılanmışdır. Rodzyankounun bu fikrinin vücuda gələcəyinə inanırlar.

## TÜRKİYƏDƏ

Türkiyə Məclisi-Məbusanında "İttihad və Tərəqqi" fraksiyasının hökumətə xitabən siyasət kursunu dəyişmək barəsindəki istizahına [sorğusuna] cavabən Maarif nazirinin "Türkiyə məğlubdur, Müttəfiqlər nə istəsələr yaparlar" deyə cavab verməsindən acınaraq İstanbul xanımları, əzcümlə [o cümlədən] Kadıköy xanımları bəzi qəzetələrə atidəki [aşağıdakı] teleqrafnaməni çəkmişlərdir:

*"Tarixi-cahana [dünya tarixinə] Çanaqqala müdafiəsi kimi bir şah əsər ehda [hədiyyə] edən qəhrəmanların ana, zövcə, həmşirə və qızları olan bizlər, Çanaqqalanın müqəddəs torpaqları altında yatan şəhidlərimizin ruhi-müəzzəzləri [əziz ruhları] qarşısında türk qadınlığına və aləmi-mədəniyyətə xitab ediriz. Limanımızda görülən ahənin [dəmir] qalaları məğlub edən və qaraya çıxarılan yarım milyon əsgərini dənizə tökən millətimizi məğlub ədd [hesab] etməyiriz. Dün Məclisi-Məbusan kürsüsündən hökumət naminə söz söyləyən Maarif nazirinin "məğlubuz, istədiklərini yaparlar" sözlərini şiddətlə protesto ediriz. Peçələrimizi [niqablarımız] yırtan və sonra hürriyyəti-cahan [dünyanın azadlığı] naminə deyə hərb etdiklərini elan edənlərə təəssüf ediriz. Hüquqi-milliyyə və ismətimizi mühafizə edəcək hökumət və erkək yoxsa, biz varız."*

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Bolşeviklərin bəyanatı**

Yanvarın 6-da Moskvadan xəbər verirlər ki, hamı Müttəfiq dövlət sosialistləri Rusiyaya əsgər daxil edilməsinə ziddirlər. Fransada nəşr olan rəsmi hökumət qəzetələri əfkari-amməni [ictimaiyyəti] Müttəfiqlərin Şimali Rusiyadan əsgərlərini[n] geri dəvət edilməsinə hazırlayırlar. Pişon bəyan edir ki, Müttəfiqlər Rusiya Şura Hökuməti əleyhinə hərəkati-hərbiyyə qəsdində olmayıb, Rusiyada bolşeviklər əleyhinə iş görən hökumətlərə müavinət göstərməklə iktifa [kifayət] edəcəklərdir. Müttəfiqlərin bu qərarı Rusiyadan Müttəfiq qoşunlarının bilkülliyə [tamamən] geri çağırılmasını tələb edən sosialistləri məmnun etməmişdir.

* İrticapərəstlər Rusiya işlərinə müdaxilə etməmək məsələsindən narazı olub, bu məsələdə Müttəfiqlər arasına küdurət [ədavət] düşəcəyini zənn edirlər.

"Exo de Pari" qəzetəsi yazır ki, sülh məsələsində Müttəfiqlər arasında birlik yoxdur.

"Forverts" qəzetəsinin xəbərinə görə, Vilson demişdir ki, Amerika En nehrinin sol tərəfinin Müttəfiqlərə ilhaq edilməsinə [birləşdirilməsinə] müsaidə etməyəcəkdir.

İtaliya qəzetələri yazırlar ki, Avstriyanı İtaliya qoşunları məğlub etmişlərdir. Ona görə də Xorvatiya və Dalmaçiya, İtaliyaya keçməlidir. İtaliya imperialistləri deyirlər, hərgah Müttəfiqlər Fiume, Triest və Dalmaçiyanı italyanlara verməsələr, Sülh Konfransını əmri-vaqe [fakt] qar-

şısında qoymalıdır. Yəni, İtaliya zorla bu yerləri əlinə keçirməlidir. Dalmaçiyaya İtaliya qoşunları çıxarılmışdır.

* Parisdən bildirilir: Klemanso Milyukovu hüzuruna qəbul etməmişdir. Fransa Hökuməti Milyukovu Fransadan təbid etməyə [uzaqlaşdırmağa] qərar vermişdir.

**"Royter" ajansından**

Nyu-Yorkdan verilən teleqramda sabiq Amerika rəisi-cümhuru Ruzveltin vəfat etdiyi işar [qeyd] olunur. Ruzvelt təzə ilin ibtidasından [əvvəlindən] xəstə yatırmış.

* Vilson və ailəsi Milana varid olmuşlardır [getmişlər]. Vilson papanı ziyarət eyləmişdir. Sülh Konqresində papanın iştirak etməyəcəyi anlaşılmışdır.

**Tsaritsının işğalı**

Mövsuq [etibarlı] mənbədən verilən xəbərlərə nəzərən [görə], Tsaritsin şəhəri Don kazakları tərəfindən işğal edilmişdir.

**Qara dənizdə**

Qara dənizə gəlmiş olan ingilis flotu, bütün Gürcüstan iskələlərinə [limanlarına] nəzarət etmişdir. Paroxodların bir hissəsi Batuma getmişdir. Dekabrın 30-da Batum [və] Potiyə 4 ingilis paroxodu gəlmişdir.

* Parisdə Sülh Konfransında böyük dövlətlərin 3-dən 5-ə dək nümayəndələri olacaqdır. Xırda müttəfiq dövlətlərin isə iki vəkili, təzə təsis edilmiş dövlətlərin bir vəkili olacaqdır.

* Yanvarın 5-də Tiflisdə yenidən erməniləri təftiş və həbs edirlər. Ermənilərdən 5 min nəfər həbs edilmişsə də, gürcü təbəəsi olan ermənilər azad edilmişlərdir.

* Erməni Parlamanı üzvlərindən Ter-Xaçaturyan, Xondkaryan, Xaçaturyan və Mamikonyan Tiflisə varid olmuşlardır [getmişlər].

**Bolşeviklərin məğlubiyyəti**

Omskdan Rusiya teleqraf ajansına xəbər verilir ki, Perm cəbhəsində bizim qoşunların müvəffəqiyyəti artır. Bizim qoşunlar Kama çayından keçib düşmənləri təqib edirlər. Biz bolşeviklərdən 37 min əsir almışıq. Bolşeviklərdən 10 alay qoşun məhv edilmişdir.

* Londonda Almaniyadan alınmış son qəzetələr göstərir ki, ziyalı nemes ünsürləri Almaniyanın məğlub olduğuna şübhə etməyirlər. Bu münasibətlə "Frans zeytunq" qəzetində xarici siyasət barəsində professor Xetiçin yazdığı məqaləsi calibi-diqqətdir [diqqət çəkicidir]. Mümaileyh [adı çəkilən şəxs] deyir ki, siyasi mərkəz tədricən Vaşinqtondan Londona keçir. Professor ittifaqın möhkəmləşməsi məsələsinə keçərək deyir ki, çox mümkündür Yaponiya ilə Amerika arasında Xita [Çin] məsələsindən ötrü ixtilaf çıxa. Ona görə də Yaponiya İngiltərənin müavinətinə məzhər [köməyinə nail] olacaq. Yaponiya da İngiltərə ilə əlaqəsini yaxşılaşdırmalıdır. Digər tərəfdən, İngiltərənin müavinəti Amerika üçün də böyük rol oynayacaq. Zira Amerika ilə Yaponiya bir-birləri ilə rəqibdirlər.

Xetiç zənn edir ki, Amerikanın maddi və mənəvi cəhətdən müavinətinə baxmayaraq, Mərkəzi dövlətlərin məğlub edilməsinə İngiltərənin ciddiyyəti səbəb olmuşdur. Almaniya flotu, Almaniya ticarəti və Almaniyanın müstəmləkə iqtidarı indi xələldar edilmişdir. İrlanda, Hindistan və Cənubi Amerikada millətlərin müqəddəratı özlərinə tapşırılmalıdır deyə qəbul ediləcək. Vilson tələbatına baxmayaraq, İngiltərənin cahan iqtidarı həmişəkindən möhkəmdir. İngiltərə Şərqi Afrikada, Ərəbistanda və Beynənnehreyndə qalib gəlmişdir. İngiltərənin Hindistan və Misir ilə olan əlaqəsi Bəhri-səfidin [Aralıq dənizinin] şərq hissəsini İngiltərəyə müsaid [sərbəst] buraxır. Deməli, İngiltərə Dardanel boğazına, Qara dənizə çıxa biləcək, Rusiya və Qafqaziyaya yaxınlaşacaqdır. İran ilə olan əlaqəsi, Bəhrisəfidin hissəsində olan halı möhkəm qalır. Belçikada olan qələbəsi sayəsində İngiltərənin kanalda dəxi hökmranlığı olacaqdır. Kil kanalının köməkliyi ilə Daniya [Danimarka] və Norveçyada [Norveçdə] olan nüfuzu ilə Baltik dənizi ilə rabitə peyda edib, böyləliklə Cənubi Rusiyada da özünə nüfuz qazanacaqdır.

Stokholm - Petroqraddan gəlmiş olan Danimarka komissiya üzvlərinin rəvayətinə görə, Petroqradın halı gündən-günə fənalaşır. Müttəfiqlərin fəaliyyətinə müqabil, bolşeviklər Petroqradı təxliyə [etmək] və Qırmızı qoşun nəfəratını [əsgərlərini] 3 milyonadək artırmaq istəyirlər.

**Lizbon [Lissabon]** - Bəhriyyə vəziri amiral [admiral] Kantu, Portəgiz rəisicümhurluğuna intixab edilmişdir [seçilmişdir].

**Paris** - Mütarikənin [atəşkəsin] uzadılması münasibətilə Tverdə Müttəfiqlərlə Almaniya arasında bağlanmış əhdnaməyə görə, Almaniya xaricdə olan nəqdiyyəsi [pulları] və qiymətli kağızlarından Müttəfiqlərin rizası ilə istifadə edə biləcəkdir.

* İngiltərə kralı şərifi-Məkkə [Məkkə şərifi] Feyzullahı hüzuruna qəbul edərkən, Şərq cəbhəsində ingilis qoşunlarına müavinət [kömək] etmiş olan ərəblərə səmimi təşəkkürünü izhar eyləmişdir.

**Amsterdam** - Sülh şərtnaməsi mövcibincə [şərtnaməsinə əsasən], Müttəfiqlərin tələb etdiyi 3 milyon frank qızıl pulun bir hissəsini Almaniya ədaya [ödəməyə] başlamışdır. Bu pullar sülh əqdinədək [bağlananadək] xüsusi bir yerdə saxlanacaqdır.

**Zəhərli qaz**

Don ordusu komandanı general Denisov teleqrafla okrujnoy atamana [hərbi dairə atamanına] təklif eyləyir Taqanroq əhalisinə elan edilsin ki, o Taqanroq dairəsinə ximiklər [kimyaçılar] dəstəsi göndərir. Əhali ricali-hökumətə [hökumət adamlarına] zidd gedəcəyi təqdirdə, asilərin əleyhinə zəhərli qaz istemal [istifadə] ediləcəkdir və heç kimə rəhm edilməyəcəkdir.

**İngilis komandanlığının Batum əhalisinə müraciəti**

Türkiyə ilə bağlanan mütarikə [atəşkəs] şərtnaməsi üzərinə ingilis qoşunları mənim komandanlığım təhtində [altında] Batum şəhərini işğal etdilər və bu işğal

şəhərinizdə asudəliyi bərpa edəcəyimizdən nəşət eyləmişdir [irəli gəlmişdir]. İngilis hökuməti həmişəlik burasını işğal etmək fikrində deyildir. Nə qədər ki, siz bizim əleyhimizə iqdamatda [təşəbbüsdə] bulunmayırsınız və nə qədər ki, bizə qarşı ədavət bəsləməyirsiniz, ingilis qoşunları sizin azadəliyinizə toxunmayacaq və həyatınıza müdaxilə etməyəcəkdir. Fəqət, bizə qarşı iqdamatda bulunsanız, o zaman cəzaya düçar olacaqsınız.

## ERMƏNİ-GÜRCÜ DAVASI ƏTRAFINDA

Yanvarın 3-də Gegeçkori Gürcü Parlamanında söylədiyi nitqində demişdir ki, Gürcüstan Hökuməti tərəfindən Ermənistan Hökuməti rəisi naminə böylə bir teleqraf göndərilmişdir:

Hal-hazırda Tiflisdə olan İngiltərə generalı Raykroft və Fransa heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] başında olan polkovnik Şardini, Gürcüstan Hökumət rəisi Jordanya ilə bir yerdə vaqe olan konfransında Camalyan olduğu halda tezliklə hərəkati-hərbiyyənin dayandırılmasını qərara almışlardır. Camalyanın protestosuna baxmayaraq İngiltərə generalı, Fransa polkovniki və Gürcüstan Hökumət rəisi Jordanya qət etdilər ki, İngiltərə, Fransa, gürcü və erməni nümayəndələrindən ibarət müştərək komissiya bu aşağıda yazılan şəraiti [şərtləri] həyata tətbiq eyləməkdən ötrü tezliklə cəbhəyə getsin. Bu komissiya Borçalı uyezdinin şimal hissəsində gürcü və cənub tərəfində duracaq erməni qarnizonları ilə həmçinin Axıska uyezdində qalacaq gürcü əsgərlərinin miqdarını təyin etməlidir. Qarnizonların miqdarı az olmalıdır.

Gürcü əsgərləri hal-hazırda dayandıqları xətdə qalmalıdırlar. Erməni əsgərləri isə türklər dayandığı Cəlaloğlu xəttinə çəkilməlidirlər. İngiltərə qaraqol əsgərləri erməni-gürcü əsgərləri arasında olan dəmiryol xəttində olacaqlardır. Buranın inzibat məmurları müştərək olmalıdır. Axıska uyezdindəki Gürcüstan məmurları Müttəfiqlərin kontrol komissiyası altında olacaqdır. Bu komissiyaya məhəlli [yerli] müsəlman və erməni əhalisindən də daxil olacaqdır. Hamı [bütün] sərhəd məsələlərinin böyük dövlətlər tərəfindən həll edilməsi üçün bu yaxınlarda gürcü və erməni nümayəndələri Avropaya göndəriləcəklərdir.

Buna cavab olaraq dekabrın 30-da bu məzmunda teleqram alınmışdır:

*"Simsiz teleqraf;*

*Tiflis, ingilis heyətinə, Şurayi-vüzəra rəisinə [Baş nazirə], Hərbi və Xarici vəzirlərə.*

*Erməni Hökuməti, general Raykroftun qətinə görə, müharibənin tərk edilməsinə və qoşunların geri çəkilməsinə razıdır. Müharib [savaşan] tərəflər nümayəndələrinin iştirakı ilə əməliyyati-hərbiyyə 31 dekabr 24 saatda dayandırılmalıdır. Erməni qoşunlarının təzə xəttə çəkilmək məsələsi Tiflisdə həll edilməlidir. Erməni Hökumətincə general Raykroftun sülh maddələrinin bəzisi aydın deyildir, amma bununla bərabər, əsasən general tərəfindən təklif edilən sülh maddələri qəbul edilmişdir. Ermənistan Hökuməti bu maddələr barəsində təfsilli məlumat almaq istəyir. Ona görə də bir*

*mülki və bir hərbi nümayəndə vəkil edilmiş və bunlar mənimlə bərabər Tiflisə gəlirlər və Müttəfiqlərlə bu məsələlər barəsində qəti surətdə danışıb qurtarmalıyıq. Mən bu məsələləri təhlil edib erməni hökuməti ilə mən həmrəyəm. Sülh maddələri aydınlaşmalıdır. Erməni Hökuməti sülhculuğu* [sülhpərvərliyi] *barəsində səmimiyyət göstərdi.*

*Müttəfiq dövlətlərin komissiyası*
*Qarakilsə komitə sədri Duqlas Vitseyn"*

**MƏTBUAT**

Sosial-demokrat menşevik "Hümmət" firqəsi tərəfindən şəhərimizdə "Al bayraq" adı ilə bir qəzetə nəşrinə şüru edilmişdir [başlanmışdır]. Qəzetə baş məqaləsində Azərbaycanın elan və davamına şərik olduğu kimi, yeni Azərbaycan tikməyə də şərik olmaq istədiyi halda, sabiq hökumətin fəaliyyətindən və təhəmmülsüzlüyündən [dözümsüzlüyündən] şikayət edərək, şimdi artıq yeni hökumət dövründə Məclisi-Məbusan kürsüsündən açıq, azad danışmaq və qəzetə səhifələrində azad yazmağa imkan bulduğunu qeydlə, məqaləsini bu sözlərlə bitirir:

*"«Al bayrağımızı» genə açırıq. Yolumuz genə əvvəlki yoldur. Fikrimiz əvvəlki fikirdir. Vətənimizin, zəhmətkeş camaatımızın səadəti, onların haqlarının müdafiəsidir.*

*Ümidimiz var ki, açdığımız «Al bayrağın» altına haqlarını müdafiə etdiyimiz Azərbaycan əmələ* [fəhlə] *və kəndliləri toplanalar.*

*İstiqlaliyyətimizi elan etməklə boynumuza düşən ağır və məsuliyyətli işlərdə – yeni hökumət qurmaq, yeni qanun və qayda qoymaq, yeni dirilik tikməkdə bizə kömək etsinlər. Ancaq təşkilatla, ancaq bir-birimizə yardım etməklə bu ağır işləri yeridə biləcəyiz."*

———

"Sosialistlər və Azərbaycan istiqlaliyyəti" [adlı] ikinci məqaləsində yenə həman qəzetə sosialistlərin proqram əsaslarından birisi də bütün millətlərin hürriyyəti və hər millətin öz müqəddəratını (diriliyini) təyin etmək haqqına malik olması olduğunu qeyd və Rusiya inqilabı nəticəsində bir tərəfdən bolşevik, digər tərəfdən də dargöz millətçilərin fəaliyyəti sayəsində çıxan fəlakətləri bəyanla deyir ki:

*"Bütün bu fəlakətlər içərisində inqilab nemətləri bir-birinin dalısınca əldən gedərkən, Zaqafqaziya demokratiyası, xüsusən bizim demokratiyamız bir böyük neməti əldə saxlaya bildilər ki, o da Azərbaycanın istiqlaliyyətidir. Öz-özümüzə hakim olmaq, əfəndi* [ağa] *olmaqdır...*

*Azərbaycan istiqlalı da sosialistlərin ümumi prinsiplərindən doğma bir keyfiyyətdir. Buna görə biz öz proqramımıza sadiq qalaraq, Azərbaycan istiqlalını elan və onu var qüvvəmizlə müdafiə etdik...*

*Biz isək bu gün bir tərəfdən Azərbaycan istiqlalının qəviləşməsi* [güclənməsi], *möhkəmləşməsi yolunda çalışmaqla, o biri tərəfdən isə bu istiqlalımızı öz sinif interesləri yolunda işlətmək və öz ağa-*

*lıqlarını və istibdadını bizim kəndli və əmələnin boynuna taxmaq istəyən xozeyinlərlə mübarizə etməkdə olacağız.*

*Azərbaycan kəndlisi və əmələsi tam mənası ilə müstəqil olmalı, həm xaricilərin boyunduruğundan, həm daxildəki xozeyinlərin əzasından* [*zülmündən*] *qurtulmalıdır. Daxildən də, xaricdən də azadlıq."*

Əziz Azərbaycanımızın həmişəkindən ziyadə şimdi və hər şeydən ziyadə bütün qüvvələrimizin ağız birliyinə möhtac olduğu bir zamanda millətimiz arasındakı ittihadi-əfkar [fikir birliyi] və ağız birliyinə ürəkdən şad olaraq, yeni rəfiqimizi təbrik, davam və bəqasını [əbədi olmasını] arzu ediriz.

## BAKI XƏBƏRLƏRİ

**Dağıstandan buğda gətirmək barəsində**

Dağıstan Hökuməti ilə bizim hökumətin arasında bir ticarət müqavilənaməsi bağlanıbdır. Bu müqavilənamə üzrə, Dağıstan hökuməti 4 ayın müddətində Azərbaycana 50 vaqon (50 min put) buğda təhvil verəcəkdir. Buğdanın qiyməti 60 manatdan hesab olunub, özü də Petrovsk mövqifində [stansiyasında] təhvil veriləsidir. Müqavilənamədə buğdanın torpaqsız, sulufsuz [darısız] və yanmamış olması şəraiti [şərtləri] də zikr edilmişdir. Buğdanın qiyməti Bakı pulları "bon"la veriləcəkdir. Müqaviləni Dağıstan Cümhuriyyəti Hökuməti tərəfindən vəkalətən hökumət nümayəndəsi Kantemirov və Azərbaycan Hökuməti tərəfindən də Ərzaq naziri Lizqar imza etmişlərdir.

**Şimali Qafqaziyaya nümayəndə göndərilir**

Ərzaq Vəzarətinin [Nazirliyinin] təşəbbüsatı ilə Şimali Qafqaziyada ərzaq və sair ehtiyacati-zəruriyyə almaq üçün Vəzarətin qulluqçusu Levin dünən yola düşmüşdür. Levinə müavinət [kömək] göstərmək üçün Xariciyyə Nəzarəti, müttəfiq Dağıstan Cümhuriyyəti Hökuməti namına [adına] bir xüsusi məktub yazıb Levinə vermişdir.

**Kəndlilər üçün bez alan vəkillərin xəyanəti**

Kənd camaatı üçün bez almağa vəkil olub gələn nümayəndələrin xəyanətləri, yəni bezi kənd üçün [alıb] şəhərdə birə iki qiymətə satmaqla məşğul olmaları o dərəcəyə çatıb ki, hətta polis müdirinin hökmünə görə xəfiyyə polisəsi xüsusi acentələr təyin edib vəkillərin bez aldıqları zaman onları təqib etməkdə məcbur olmuşlar.

Yaxşı olardı ki, Nəzarət [nazirlik] özü bu işdə bir qədər ciddiyyət göstərib, kənd camaatına bez və ya ki qeyri əşya paylamaq istədikdə, öz qulluqçuları və kontrolları vasitəsilə həman şeyləri kənd camaatına bilavasitə paylayaydı.

Bu iş həmi kəndçilərə mənfəət və həmi də ehtikarçılığa [möhtəkirliyə] mümaniət [maneçilik] vəzifələrini görmüş olardı.

**Müsəlman mətbəə əmələlərinin iclası**

Srağagün "Heyəti-mütəşəbbisə" [tə-

şəbbüs heyəti] tərəfindən dəvət edilən bütün Bakı mətbəələrində işləyən müsəlman mürəttib, cildçi, çapçılarının iclası vaqe olmuşdur.

İclası "Heyəti-mütəşəbbisə" tərəfindən baş mürəttib Aslan bəy Abdullabəyzadə cənabları açaraq, iclasın məqsədindən hazirunu [orada olanları] müxtəsər söylədiyi nitqlə aşina və bugünkü iclasa bir sədrlə bir katibin intixab edilməsini [seçilməsini] təklif etdi. İclas Seyid Hüseyn Sadiq əfəndini sədrliyə, Qədir Heydərzadə cənablarını katibliyə intixab etdi.

Mətbəə əmələlərinin [işçilərinin] bugünkü iclasından məqsəd və onları buraya cəm etməyə vadar edən, özlərinin iqtisadi mənafeyini müzakirə etməkdir. Bu xüsusda bir neçə natiqlər nitq söyləyib mətbəə əmələlərinin, ələlxüsus mürəttiblərin siyasət aləmində böyük rollar oynadıqlarını və əzcümlə [o cümlədən] natiqlərdən birisi, mürəttiblərin 1909-cu ildə rütubətli padvallarda işləyib, intibahnamələr [vərəqələr] tərtib verməklə məşğul olub, özlərinin bədənlərini böylə rütubətli ziri-zəminlərdə [zirzəmilərdə, yer altında] şam kimi əritdiklərini və böyləliklə onların böyük-böyük işlər yapdığını və bu işlərin müəssisləri [təsisçiləri] olduqlarını izharla fəxr edir və mürəttibləri müqəddəs xidmətkarlar cərgəsində tutur.

Gələcək iclasda həm iqtisadi və həm siyasi məsələləri müzakirə etməkdən ötrü 4 nəfərdən ibarət bir komissiya intixab edilir ki, bu komissiya gələcək iclas üçün bütün mətbəələrdə işləyən müsəlman əmələlərini siyahı edib, gələcək iclasa təqdim etsin. Komissiyaya Seyid Hüseyn Sadiq, Ruhulla Axundzadə, Aslan bəy Abdullazadə və Usta Ələbbas intixab edilirlər. İclas saat 7 tamam[da] qapanır.

## QAFQAZİYA MÜSƏLMAN MÜTƏƏLLİMLƏRİNİN [TƏLƏBƏLƏRİNİN] MƏRKƏZİ KOMİTƏSİ TƏRƏFİNDƏN

Müttəəllim və mütəəllimə arxadaşlar!

Bakıda bütün milli fəaliyyətimizi boğmuş, öldürmüş Mart hadisatı [hadisələri], Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsinin fəaliyyətini dəxi müvəqqətən saxladı. Fəqət haqq və ədalət öz yerini tutdu. Qara günlərin sonunda sübhi-feyz [rifah və nemət səhəri] doğdu. Martdan qabaqkı yarımçıq əsarətimiz istiqlala mübəddəl oldu [çevrildi]. Qurbanlar verdiksə, əziyyətlər çəkdiksə, istiqlala nail olduq. Təbiətin müstəqim, dəyişməz qanunudur:

Əzilməzsə bəşər, bulmaz səadət rahini [yolunu] mütləq.

Milli fəaliyyətimiz istiqlal sifəti ilə yenidən cərəyana başladı. Mərkəzi Komitə dəxi işə başladı.

Vəzifə başına, arxadaşlar! Bir kərə ittixaz [qəbul] etdiyimiz nizamnaməni sonuna kimi təqib edəlim. İstibdad dövründə belə böyük şövq, həvəs, mətanət, istiqamətlə [yolundan dönməməklə] gizli surətdə təqib etdiyimiz ali, müqəddəs məqsədləri milli istiqlalımız dövründə buraxmayalım. Hər bir barədə o məqsədlərimizi icra etməyə bizim üçün böyük imkan, geniş meydan açılmışdır. Məqsədlərimizin xülasəsi isə gənclərimizi millətin sadiq oğulları olaraq fəaliyyət ərsəsinə [meydanına] çıxarmaq!

Qoş ittihada, tərəqqiyə, sə'yə, iqbala,
Fəqət unutma ki, yol intizami-məşyətlə
Yaxınlaşır, qısalır; doğru at adımlarını!
Düşün, bugünkü adımlar hazırlayır yarını!

*Qafqaziya Müsəlman*
*Mütəallimlərinin Mərkəzi Komitəsi*

## TEATRO VƏ MUSİQİ

### "Arşın mal alan"

### I

Əsbabi-tərəqqimizin [tərəqqi səbəbimizin] bir növünü təşkil edən sənayeyi-nəfisə [incəsənət] və bilxassə [xüsusilə] teatro və musiqi işlərimizə dair kamalınca məlumat və mülahizat [mülahizələr] yazmağa, təəssüflər olsun ki, qəzetəmizin həcmi müsaid deyildir. Buna görə də, bu xüsusda hər nə yazılsa, mümkün qədər müxtəsər olmaq məcburiyyəti vardır. Məsələn, keçən cümə günü Hacıbəyli Qardaşları müdiriyyəti tərəfindən oynanılan "Arşın mal alan"da "Əsgər" rolunu ifa edən Şərifov cənablarının hərəkati-artistikisi [bədii hərəkətləri] "alafranqa" [avropasayağı] bir tərzdə olması bu artistin əsl artist olmaq ciddü cəhdinə dəlildirsə də, ciddü cəhdi yanlış bir tərzdə gedir. Çünki, Yevropa artistlərinin hərəkatı bir başqa, Şərq artistlərininki də bir başqa olmalıdır. Bu məsələ xüsusunda çox danışmaq istərdik. Halbuki ancaq bir-iki söz deməklə iktifa etməliyik [kifayətlənməliyik].

Yevropa artisti təmsil etdiyi bir şəxsin qəm və kədərini göstərmək üçün iki əli ilə başından yapışır. Halbuki Şərq adamlarına, baxüsus [xüsusilə] müsəlman əfradından [fərdlərindən, adamlarından] birisinə bir kədər ariz olarsa [üz verərsə], əllərini qoynuna qoyur. Nədən ötrü? Ona görə ki, yevropalılarda hər bir dərdə və hər bir qəmə müqavimət etmək, rəf'i [aradan qaldırılması] üçün çalışmaq təbii olduğuna görə, başından yapışmaqla bu qəm və küdurətin əlacını axtarır. Amma Şərq adamı həmişə zülmdidə olub [zülüm çəkib] da, bu zülmə taqətdə adət etdiyinə görə, əllərini qoynuna qoyub məzlum olduğunu göstərməklə iktifa edir.

İranda olarkən mərsiyəxanlar və dərvişlər gördüm ki, oxuduqları və hekayə etdikləri sözləri əsl Şərqə məxsus əda və hərəkat ilə, yəni baş, bədən, əl və üz hərəkatı ilə öylə bir məharət göstərirdilər ki, gözün qabağında sanki bir artist görürdünüz.

Yevropa həyatına aid pyesələrdə Şərq hərəkatı və Şərq məişətindən götürülmüş pyesalarda Yevropa hərəkatı, artistlik sənətində fahiş bir qələtdir.

Şərifov ikinci pərdədə "Axtarıb tapdım səni" havasını yaxşı oxudusa da, Sarabskinin "segah"ının yerini və təsirini verə bilmədi. "Əsgər" rolunun ən çətin yeri, qızlara arşın mal satdığı yerdir. İndiyə qədər bir artist görmədim ki, bu yeri üstadlıqla keçirə bilsin! Burasına rejissor əfəndinin diqqətini cəlb edirik.

Artistdə iki fəzilətdən [üstünlükdən] biri olmalıdır: ya xüdadadilik [Allah vergisi], ya da üstadlıq. Xüdadadilik – Allah vergisidir. Bu hər kəsdə olmaz və hər kəsdən tələb etmək də caiz [doğru, uyğun] deyildir. Amma üstadlıq belə şeydir

ki, səy və kuşiş [çalışma] və bir də qabiliyyət sayəsində hasil edilə bilər. Bunu da bir artist olmaq istəyəndən tələb etməyə tamaşaçıların böyük haqqı vardır.

Xəlil əfəndi, üstadlıq dərəcəsinə çatmış bir artist olduğunu keçən oyunda “Süleyman” rolunda göstərdi. Zahirdə həmişə şad, hər dərdin dərmanını bilən və batində də nikbin olan Süleymanı Xəlil əfəndi tamamilə və layiqilə göstərdi. Mərhəba olsun [əhsən]!

Hələlik bu qədər. O biri oyunçular haqqında gələn səfər yazmağa məcburuq.

*Mizrab*

**HƏFTƏ POSTASI [POÇTU]**

Nəcimi əfəndiyə: Məktəblərimizin milliləşməsi və buna görə də müəllimlər hazırlamaq, kitablar düzəltmək xüsusunda Maarif Nəzarəti tərəfindən lazımi işlər görülməkdədir. Keçənlərdə şəhərimizdə vaqe olan xalq məktəbləri müfəttişlərinin qəzetəmiz nömrələrində yazılmış olan qərardadlarını və bu xüsusda mühərrirlərimizdən Fərhad Ağazadə əfəndinin yazmaqda olduğu məqalələrini oxumağı tövsiyə edirik.

Məhəmməd əfəndiyə: Məqalələrinizi kağızın ancaq bir üzündə yazınız, vəilla [yoxsa] təkrar yazdırmaq müşkülatı məcburiyyətində oluruq.

S. əfəndi: Əsgərlərimizin yeni Hərbiyyə naziri həzrətlərinin fəaliyyəti-mərdanəsi ilə böyük bir nizama salınmasını kamali-məmnuniyyət və sürur [sevinc] ilə məqalənizdən oxuduq. Dil məsələsinə gəlincə, hər bir Nəzarətimizdə hələlik rus dili istemalı [işlədilməsi] məcburi olduğu qeyri-məmul [arzuedilməz] bir həqiqət isə də, milliləşmək və hər bir şeyi milliləşdirmək əmri [işi] tədriclə mövqeyi-icraya qoyulduğundan, bir az zamandan sonra rus dili istemalına ehtiyac qalmayacağı şübhəsizdir. Bu gün bizi artıq sevindirən əsgərlərimizin intizamı, gücü, rahatlığı və vəzifələri haqqında göstərməkdə olduqları sədaqətdir.

Bayram Niyazi Kiçikxanov əfəndiyə: Zaqatala islam qardaşlarımızın qoşun və nizami əsgərlik haqqında göstərmiş olduqları hümmət və səmimiyyəti böyük xoşnudluqla oxuduq. Azərbaycanın qismi-layənfəki [ayrılmaz hissəsi] olan Zaqatala haqqında hökumətimizin lazımi dərəcədə diqqət və qeydkeşliyi [qayğıkeşliyi] əlbəttə hökumət başında duranlarımızın doğrudan doğruya vəzifələri olmalıdır. Bu yoldakı vəzifə, şübhəsizdir ki, layiqincə ifa ediləcəkdir. Hər halda, zatınız da etiraf etməlisiniz ki, İrəvan həvalisi [tərəfləri], Araz ətrafı, Qarabağ və Lənkəran müsəlmanlarının hal və övzaları [vəziyyətləri] Zaqataladakı qardaşlarımıza nisbətən dedikcə [olduqca] ağır və məşəqqətlidir. Bunların bu məşəqqətlərini azaltmaq və rəf’ etməyə [aradan qaldırmağa] məşğul olan hökumətimizin Zaqatala və sair Azərbaycan hissələri xüsusunda da lazım olan işlərə mübaşir olacağı [girişəcəyi] təbii bir əmrdir [işdir]. Bununla belə, Zaqatala müsəlmanlarının əhval və övzayi-haliyyəsindən [indiki vəziyyətindən], ehtiyacati-zəruriyyəsindən qəzetəmiz vasitəsilə məlumat verərsənizsə, böyük mənfəət gətirmiş olarsınız.

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

Müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Mehmanxaneyi-"Məhəmmədiyyə"**

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Elan**

"Açıq söz" qəzetəsinin mətbəə və idarəsi Mart hadisələri əsnasında yandırıldığından, "Açıq söz" kolleksiyonları dəxi tələf olmuş-

dur. Məzkur qəzetənin baş mühərriri Rəsulzadə Məhəmməd Əmin bununla elan edir ki, kimdə məzkur qəzetənin koleksiyonu varsa və satmaq istərsə ya "Azərbaycan" idarəsinə və yaxud 55-10 nömrəli telefon ilə kəndilərinə bildirsin.

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Bakı Obşestvennı Sobraniyasının [İctimai Yığıncağının] müvəkkil şurası**

Kluba gələn zəvata [şəxslərə] məlum edir ki, cəmiyyətin 21-ci maddəsi mövcibincə [maddəsinə əsasən] bu ayın 10-undan şəhərin əbədi [daimi] əhalisi cəmiyyətə qonaq sifəti ilə buraxılmayacaqdır.

Düşənbə [bazar ertəsi] günü 1919-uncu ilin yanvar ayının 13-də Bakı Obşestvenni Sobraniyasına namizəd verilənlərin intixabı [seçkisi] olacaqdır.

Qeyd: 14-cü maddə mövcibincə bu gün namizədlərin cəmiyyətə düxulu [girişi] mən [qadağan] olunur.

*T-7*

**Türk təqvimi**

**Yeni və əski üsullar ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

*b-38* *10-9*

**Sovet Syezd**

Ümum neftçilərə elan edir ki, keçən il kanuni-əvvəlin [dekabrın] 31-də, bu il kanunisaninin [yanvarın] 5-ində vaqe olmuş Neftçilər ümumi iclasının qətnaməsinə görə, onlar aşağıdakı qərardadları riayət etməlidirlər:

1) Sentyabr hadisələri zamanı Bakıdan çıxıb getmiş və dekabrın 8-inə kimi qayıtmamış qulluqçular və fəhlələr qulluqlarına qəbul edilməyiblərsə, axırıncı dəfə işə gəldiyi gündən onları qulluğundan xaric edilmişədd [hesab] edib, qərar qoyulmuş çıxacaq pulları verilməlidir. Bunlardan dekabrın 8-dən sonra qayıdıb da qulluğa qayıtmayanları axırıncı işə gəldiyi gündən öz xahişi ilə qulluqdan çıxmış ədd edərək, qulluğundan öz rizası ilə çıxanlar üçün qərar qoyulmuş çıxacaq pulu verməli.

2) Sentyabr hadisələri zamanı Bakıda qalıb da qulluğa gəlməyən, 17 noyabr 1918-ə kimi qulluğa qəbul edilmiş qulluqçu və fəhləlləri 1-nci maddəyə görə qulluqdan xaric ədd etməli. Bunlardan noyabrın 17-nə kimi işə qəbul edilənlərə işləmədiyi günlərin, yəni sentyabrın 15-ndən işə başladığı günə kimi maaş surəti ilə əsas məvacibinin yarısını, mənzil və mənzil məxaricini [xərclərini] verməli.

3) Mart hadisələri zamanı Bakıdan qaçıb da təzə qayda ilə iyun ayının 1-nə kimi qulluğa qəbul edilməyən qulluqçu və fəhlələri 1-inci maddə mövcibincə [əsasında] qulluqdan xaric ədd etməli. Bunlardan iyunun 1-ndən sonra qayıdıb qulluğa qəbul edilməyənləri 1-nci maddəyə görə öz rizası ilə qulluqdan çıxmış ədd etməli.

4) Mart hadisələrindən sonra Bakıda qalan vaxtda və öz işinə mübaşirətə [başlamağa] qadir olmayan, 1918[-ci] ilin təzə qaydası iyunun 1-nə kimi yenidən qulluğa qəbul edilməyən qulluqçu və fəhlələri 1-nci maddəyə görə qulluqdan xaric edilmiş ədd etməli. Bunlardan iyunun 1-nə kimi yenidən qulluğa qəbul edilənlərə işləmədiyi müddət zamanı maaş surəti ilə əsas məvacibinin yarısını, mənzil və mənzil məxaricini verməli.

*2643*

***Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**Milyukov zehniyyəti**

səh. 180. Homrul [Home Rule]: "özünüidarə". XIX əsrin sonu – XX əsrin əvvəllərində İrlandiyanın muxtariyyəti uğrunda hərəkat.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 183. "a) Cəza qanunnaməsinin...": Bu qanunun hərflərlə göstərilən maddələri qəzetdə ərəb əlifbasına uyğun olaraq (əlif, bə, tə kimi) sıralanmışdır.

səh. 184. "...Məsai nazirinə xitabən...": o dövrdə Azərbaycanın Məsai [Əmək] naziri Aslan bəy Səfikürdski idi.

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 185. "...hersoq Maksı Karlın vəliəhdi intixab etmişlərdir.": Söhbət Avstriya-Macarıstan imperatoru I Karldan və onun qardaşı, Avstriya ershersoqu Maksimiliandan gedir.

**Türkiyədə**

səh. 186. "Maarif naziri": o dövrdə Osmanlı Dövlətinin Maarif naziri Rza Tofiq (Bölükbaşı) olmuşdur.

Kadıköy: İstanbulun Anadolu (Asiya) hissəsində yer alan rayonlarından biri.

**Cümə günkü mühüm xəbərlər**

səh. 187. "Vilson papanı ziyarət eyləmişdir.": O dövrdə Roma papası XV Benedikt idi.

səh. 188. "İngiltərə kralı": 1910-1936-cı illərdə Böyük Britaniya kralı olan V Corc nəzərdə tutulur.

"Məkkə şərifi": Məkkə və Mədinə şəhərlərini əhatə edən Hicaz bölgəsində X əsrin ortalarından XX əsrin əvvəllərinə qədər mövcud olmuş Məkkə şərifliyinin hakimi.

**Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsi tərəfindən**

səh. 193. "Qoş ittihada, tərəqqiyə, sə'yə, iqbala...": Bu misralar türk şairi Tofiq Firkətin "Rücu" şeirindən götürülmüşdür. Mənası:

"Birliyə, tərəqqiyə, zəhmətə, gələcəyə qoş,

Fəqət unutma ki, yol nizam-intizamlı bir şəkildə gedilərsə

Yaxınlaşar, qısalar; doğru at addımlarını!

Düşün, bugünkü addımlar sabahı hazırlayır!"

**Teatro və musiqi**

səh. 193. Şərifov: söhbət teatr aktyoru və rejissor Hacıbaba Şərifovdan gedir.

səh. 194. "Xəlil əfəndi": teatr aktyoru Xəlil Hüseynzadə (Hüseynov) nəzərdə tutulur.

"Mizrab": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**Həftə postası**

səh. 194. "...Hərbiyyə naziri həzrətlərinin...": Səməd bəy Mehmandarov nəzərdə tutulur.

**Sovet Syezd**

səh. 196. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

"...mənzil və mənzil məxaricini...": burada mənzilin kirayəsi və aylıq məişət xərcləri ayrı-ayrılıqda nəzərdə tutulur.